Ukrayna ATƏT-i qınadı: “Bizsiz danışıq olmaz”

Yazan
08.05.14 23:01 -



“Ukraynanın iştirakı olmadan Vladimir Putinin ATƏT-lə danışıqlar aparmaq cəhdi mənasızdır”.

AzNews.az-ın məlumatına görə, bu bəyanatla Ukrayna Xarici İşlər Nazirliyi çıxış edib. XİN-nin bəyanatında bildirlib ki, Ukraynanın iştirakı olmadan keçirilən bu görüşlərin məqsədini anlamır və Rusiya prezidenti ilə ATƏT-in nümayəndələri arasında mayın 7-də Ukrayna böhranının həlli ilə bağlı Moskvada baş tutan danışıqlardan narazıdır: "Vəziyyətin sülh yolu ilə həll edilməsi yollarının Ukraynanın iştirakı olmadan müzakirə edilməsi qeyri-məqbuldur və mənasızdır”.

Ukrayna baş naziri Arsen Yasenyuk da öz növbəsində ölkədəki vəziyyətin Moskvada Ukraynanın iştirakı olmadan müzakirə edilməsinə təəccübünü bildirib.

Qeyd edək ki, dünən Rusiya prezidenti Vladimir Putin ATƏT-in fəaliyyətdə olan sədri Didye Burkxalterlə görüşüb.

Görüşdə Ukrayna böhranı müzakirə olunub. ATƏT başçısı “Cenevre sazişi”nin Ukrayna məsələsini müzakirə edən iştirakçılarına “yol xəritəsi” təqdim edəcəyini bildirib. Bu xəritədə problemin həlli istiqamətində atılacaq konkret addımlar öz əksini tapacaq.